# İctimai xadim, el ağsaqqalı - Qənbər Şəmşiroğlu

**Azərbaycanın sosial-mədəni həyatında özünəməxsus rolu olan el ağsaqqalı, tanınmış ictimai xadim, ziyalı, şair Qənbər Şəmşiroğlu uzun və mənalı ömrünü sonuna qədər fəal ictimaiyyətçi, nüfuzlu ziyalı, əsl Azərbaycan vətənpərvəri, fədakar el-oba təəssübkeşi kimi yaşadı və çalışdı. Dədə Şəmşirin ailəsində doğulub-böyüyən Qənbər müəllim bu ulu ocağa xas bütün nəcib keyfiyyətləri, dəyərli xüsusiyyətləri öz şəxsiyyətində layiqincə təcəssüm etdirmişdir. Özünün yazdığı kimi:**



Ulu babam Miskin Abdal
Qurban böyük dərya-kamal
"Şəmşiroğlu" - deyib hər hal
Ünvanımı gəzdirirəm!

Zəngin bioqrafiyaya malik Qənbər müəllim 1933-cü il noyabr ayının 16-da Kəlbəcər rayonunun Ağdaban kəndində dünyaya gəlib. 1950-ci ildə Yanşaq kənd orta məktəbində təhsil aldıqdan sonra bir il Kəndli-Gənclər Kursunda işləyib, 1951-ci ildə ikiillik Ağdam Dövlət Müəllimlər İnstitutunda Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olub. 1953-cü ildə həmin institutu bitirərək Kəlbəcər rayon Ağdaban kənd yeddiillik məktəbində müəllim, 1957-ci ildən isə həmin məktəbin direktoru işləyib. 1957-ci ilin mart ayından 1958-ci ilin avqust ayınadək Kəlbəcər rayon Partiya Komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsində çalışıb. 1958-ci ildə Bakı Ali Partiya Məktəbinə göndərilib. 1961-ci ildə qiyabi yolla N.Tusi adına İnstitutu, 1964-cü ildə isə Sov.İKP yanında Ali Partiya məktəbini bitirib. 1960-1966-cı illərdə Ağdaban səkkizillik məktəbində direktor, 1966-1971-ci illərdə Kəlbəcər qəsəbə orta məktəbində direktor, 1971-ci ildən 1974-cü ilədək Kəlbəcər RPK-nın ikinci katibi, 1974-1988-ci illərdə Kəlbəcər RİK-in sədri, 1989-cu ilin aprelindən 1991-ci ilin oktyabr ayınadək Gədəbəy RİK-in sədri, 1991-ci ildən 1992-ci ilin may ayınadək Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı, 1993-cü ilin aprel ayından Azərittifaqda baş müşavir, 1993-cü ilin aprel ayından 1994-cü ilin yanvar ayınadək Kəlbəcər Rayon İcra hakimiyyətinin başçısı işləyib. Uzun müddət dövlət fəaliyyətində səmərəli çalışdığına görə Qənbər müəllim "Şərəf nişanı" ordeni, "Əmək igidliyinə görə" və "Əmək veteranı" medalları ilə təltif edilmişdir. Qənbər müəllimin müasir Azərbaycanın sosial-iqtisadi inkişafındakı əməyi ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək dəyərləndirilib və 18 oktyabr 2011-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub.

Özünün müdriklik, kamillik yaşında da Qənbər Şəmşiroğlu ictimai-mədəni fəaliyyətdən geri qalmayıb "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyini yaratdı. Bu birlik 29 yanvar 2010-cu ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alındı. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi yarandığı gündən bu günə kimi mədəniyyətimizin, incəsənətimizin, milli-mənəvi dəyərlərimizin, aşıq sənətinin qorunub yaşadılması və digər sahələr üzrə ölkə daxilində və xaricdə müxtəlif tədbirlər həyata keçirir. Müntəzəm şəkildə ölkəmizdə həyata keçirilən kütləvi-mədəni və sosialyönümlü tədbirlərin iştirakçısı, sosial qayğıya, mənəvi dəstəyə ehtiyac duyan insanların qayğıkeş, fədakar yardımçısı olmuşdur. Qənbər müəllim son 30 ilə yaxın müddətdə qaçqın və məcburi köçkünlərin, şəhid, əlil ailələrinin, tələbə və gənclərin sosial problemlərinin həllinə, yaşayış şəraitlərinin yaxşılaşdırılmasına bir vətəndaş və ziyalı kimi dəyərli töhfələr vermişdir. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi "Unudulmaqda olan xalq sənəti nümunələrinin təbliği", "Ustadnamələr - milli dəyərlərimizin əlifbasını birgə oxuyaq" və "Azərbaycan-Türkiyə milli birliyinin simvolu - ozan-aşıq sənəti" və sair onlarla layihələri həyata keçirmişdir. Layihələr çərçivəsində milli folklor oyunlarımız olan Kilimarası və Maraloyunu geniş ictimaiyyətə təbliğ edilmiş, bukletlər şəklində çap edilib vətəndaşlara paylanmış və bunun əsasında qısametrajlı filimlər hazırlanmışdır.

Qənbər müəllimin rəhbərliyi və təşkilatçılığı ilə Ulu öndərimiz Heydər Əliyev irsinin öyrənilməsi, gənc nəslə aşılanması ilə bağlı mütəmadi olaraq silsilə təbirlər həyata keçirmişdir. Təşkilat həmçinin Qənbər Şəmşiroğlunun təşəbbüsü əsasında Azərbaycan şair və yazıçılarının, elm və ədəbiyyat xadimlərinin kitablarını nəşr etdirib ictimaiyyətə təqdim etmişdir.

O, Azərbaycan Yazıçılar Birliyinin üzvü və Respublika Ağsaqqallar Şurası Rəyasət Heyətinin üzvü, 40-dan artıq kitabın müəllifi : "Gədəbəy xatirələri", "Axtarıb Şəmşiri görmək istəsən", "Oğul gərək oğul olsun", "Bütövləşmək istədim", "Qənbər Şəmşiroğlu-75: Ömrün işıqlı anları", "Tale oxşarlığı", "Qənbər Şəmşiroğlu: Dostlar unutmaz məni", "Əmioğluların əməlləri", "Bir də görüşərik...", "Kəlbəcər: ömrüm, həyatım", "Sxojest sudeb" - "Oxşar talelər" (rus dilində), "Prodelki rodstvennikov" - "Qohumların əməlləri" (rus dilində), "Trisks of relatives" - "Qohumların əməlləri" (ingilis dilində), "Salehli səfərlər", "Hələ yerindədir, vurur ürəyim", "Caninin etirafı", "Bir də görüşərdik". Həmçinin Qənbər müəllimin iki kitabı İran İslam Respublikasında nəşr olunmuşdur. Qənbər müəllimin nəzm, nəsr əsərlərindən başqa, müxtəlif illərdə müxtəlif mətbuat orqanlarında bir-birindən maraqlı onlarla elmi-publisistik, ədəbi-bədii yazıları dərc olunub. Həmin mətbuat orqanlarından "Dünya", "Yeni bəşər", "Yenilik", "525-ci qəzet"lərini, və jurnalları nümunə göstərmək olar.

Yurd həsrətini daima qəlbində daşıyan, həyatın min bir çətinliyinə sinə gərən Qənbər Şəmşiroğlu öz yaradıcılığında təpədən-dırnağadək vətənin haqq aşiqi idi. Bir zaman zirvəsindən atla keçdiyi dağların indi yurdunun qabağına çəkilən divar olduğunu duyan qəlbinə hər addımında o torpaqlara qovuşmaq ümidini diktə edir:

Könül bu həyatın sonu səfərdi,
Ötən ömrü eşq eləmək hünərdi.
Yurda həsrət Şəmşir oğlu Qənbərdi
Yaşıyacaq o dağların eşqinə...

Bəli, Qənbər müəllim yaşadı... çünki Qənbər müəllim elə bir şəxsiyyət idi ki, ona yüzlərlə insanların ehtiyacı var idi. Kəlbəcərin ağsaqqalı olan Qənbər Şəmşiroğlu hansı məclisə gəlirsə, insanlar Qənbər müəllim tərəfə boylanır və: "Həmişə dar gündə bu kişi bizim köməyimiz olub" - sözlərini deyirlər. Əminliklə söyləmək olar ki bu, hər kəsə nəsib olmayan bir xöşbəxtlikdir. Ən əsası da odur ki, Qənbər Şəmşiroğlu bütün bu yaxşılıqları təmənnasız edirdi.

Bu gün Ali Baş Komandamız İlham Heydər oğlu Əliyevin şücaəti, ordumuzun qüdrəti sayəsində torpaqlarımız mənfur düşməndən azad oldu. Müzəffər Azərbaycan Ordusu, Ali Baş Komandamız Azərbaycan şəhidlərinin qanını aldı. Qənbər müəllimin şerindəki kimi:

Elin köməyilə çörəklənmişəm,
Dirçəlib dirçəlib zirəklənmişəm.
Orduma baxaraq ürəklənmişəm,
Bilirəm qanımı alanlarım var.

44 günlük Vətən müharibəmizin şanlı zəfərlə bitməsinə, Qarabağın, eləcə də Kəlbəcərin azad edilməsinə ən çox sevinənlərin önündəydi Qənbər müəllim. Nə xoş ki Qənbər müəllim sağlığında ailə üzvlərilə birlikdə Kəlbəcəri ziyarət edə bildi. Oğlu Cavid Qurbanovun dediyi kimi: "Şükürlər olsun ki, atam ömrünün sonlarında Qarabağımızın, doğulduğu Kəlbəcərin azadlığını gördü. Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətlə Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin xalqımıza bəxş etdiyi tarixi Zəfərin şahidi oldu. Ona görə əminəm ki, atamın ruhu şaddır".

Bu gün Qənbər müəllimin vəfatından bir il keçdi. Allah sizə rəhmət eləsin. Siz sizi sevənlərin qəlbində daim yaşayacaqsınız.

***Rübabə ŞİRİNOVA***
***AMEA Əlyazmalar İnstitutu fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***